DOI: https://doi.org/10.36719/2789-6919/47/32-36

**Samir Baxşəliyev**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-4054-2974
baxshaliev81@mail.ru

# Azərbaycan diplomatik heyətinin üzvləri Paris Sülh Konfransında

## Xülasə

Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransındakı uğurlu diplomatiyası və Cümhuriyyətin digər dövlətlər tərəfindən tanınması barədə məlumatlar öz əksini tapmışdır. Burada hələ 20-ci əsrin əvvəllərində müstəqil dövlətimizin qonşu və qeyri-qonşu dövlətlər tərəfindən tanınması prosesinin çətinliyindən bəhs edilir. Bu məqalədə əsas diqqəti cəlb edən faktlardan biri də Paris Sülh Konfransı zamanı sülh nümayəndə heyətinin qarşılaşdığı problemlərə baxmayaraq, ölkəmizi layiqincə təmsil etməsidir. Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti, Paris Sülh Konfransındakı heyəti barədə də qeydlər var. Əldə edilmiş məlumatlar kitab, dərslik və digər internet resursları vasitəsilə aydınlaşdırılır.
***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, xarici siyasət, sülh konfransı, qonşu dövlətlər, tanınma*

**Samir Bakhshaliyev**
Baku State University
PhD in History
https://orcid.org/0000-0003-4054-2974
baxshaliev81@mail.ru

# Members of the Diplomatic Staff of Azerbaijan at the Paris Peace Conference

## Abstract

The article has contained information about the successful diplomacy of the Azerbaijan Democratic Republic at the Paris Peace Conference and the recognition of the republic by other states. İt is discussed here about the difficulty of the process of recognition of our independent state by neighboring and non neighboring states even at the beginning of the 20 th century. One of the main facts in this article is that the peace delegation adequately represented our country during the Paris Peace Conference despite the problems is faced. There are also notes on the foreign policy of the Azerbaijan Democratic Republic and its delegation to the Paris Peace Conference. The information in the article is clarified through books, textbooks and other Internet resources.
***Keywords:***. *Azerbaijan Democratic Republic, foreign policy, peace conference, neighboring states, recognition*

## Giriş

Müstəqil Azərbaycanın yaranması Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutu nəticəsində baş vermişdir. Zaqafqaziya Seyminin 1918-ci il 27 may iclası ilə Müvəqqəti Milli Şura yaradılması qərara alındı. 1 gün sonra keçirilən iclasda Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul edildi. Həmçinin bu iclasda Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti haqqında. Beynəlxalq aləmdə tanınmaq AXC-nin xarici siyasətinin əsas prioriteti idi. Cümhuriyyətin xarici siyasətdə ən böyük addımı Osmanlı ilə Batum müqaviləsinin imzalanması oldu. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazir

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

liyi Cümhuriyyətin xarici siyasətini həyata keçirən dövlət orqanıdır. 1918-ci il 28 mayda təsis edilib. I və II hökumət kabinələrində xarici işlər naziri vəzifəsinə Məhəmmədhəsən Hacınski təyin edilmişdir. Həmin ilin oktyabrında hökumət dəyişikliklərindən sonra bu vəzifəyə Əlimərdan bəy Topçubaşov gətirildi. III hökumət kabinəsində isə bu vəzifəni həm də Baş nazir olan Fətəli xan Xoyski icra etmişdi. IV kabinədə isə bu vəzifə Məmməd Yusif Cəfərova tapşırılmış, 1919-cu ilin 24 dekabrında V hökumət kabinəsində isə bu vəzifə yenidən Fətəli xan Xoyskiyə həvalə edilmişdir. Cümhuriyyət yarandığı ilk günlərdən qonşuları ilə əlaqələrini dostluq və qarşılıqlı həmrəylik prinsipləri əsasında qurmağa çalışmış, bütün fəaliyyətini bu vəzifənin yerinə yetirilməsinə yönəltmişdir (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası II, 2005, s. 17).

**Tədqiqat**

Azərbaycan nümayəndə heyəti tarixi sənədlərdə. Azərbaycan nümayəndə heyətinin sədri olan Ə.M.Topçubaşov kommunikasiyada çətinliklərə baxmayaraq 1919-cu ilin mart-noyabr aylarında Nazirlər Şurasına 11 hesabat göndərdi. Bu hesabatlardan yalnız 7-si qorunub saxlanılmışdır. Cümhuriyyətin xarici siyasəti ilə bağlı mühüm olan bu sənədlər 1927-ci ildə tarixçi A.Rayevski tərəfindən ayrıca kitab şəklində çap olunmuşdur. Azərbaycan hökumətinə göndərilən məlumatlar üzərində "Président de la délégation de paix de l'Azerbaïdjan" rəsmi ştampı olan blankda yazılmışdır. Bu hesabatlar ya Topçubaşovun özü tərəfindən, ya da onun diktəsi ilə katiblər tərəfindən yazılırdı. Topçubaşov 1919-cu ildə Parisdən göndərdiyi məlumatlardan birində yazırdı: "Doğrudur, hələ bizi dövlət kimi tanımırlar. Lakin getdiyimiz hər yerdə və hamıya artıq il yarımdan bəri dövlət kimi mövcudluğumuzu bildirir, öz parlamenti, hökuməti, inzibati sistemi, məhkəməsi, ordusu olan Azərbaycanın müstəqil yaşadığını göstəririk. Qarşımızda bir yol var – bu da Azərbaycanın müstəqilliyinə aparan yoldur." Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyəti yeni yaranmış müstəqil dövlətin Avropaya göndərdiyi ilk diplomatik desant idi (Azərbaycan Paris Sülh Konfransında, 2007, s. 15-18).

Sülh konfransına yola düşən nümayəndə heyətinin tərkibi. I Dünya müharibəsinin başa çatması ilə müharibədən sonrakı vəziyyəti həll etmək üçün Parisdə Sülh Konfransının çağırılmasına qərar verildi. 1918-ci ilin dekabrında təsis edilmiş Azərbaycan parlamenti paytaxt Fransaya tam səlahiyyətli nümayəndə heyəti göndərməyi qərara aldı. Bu nümayəndə heyətinin sədri Əlimərdan bəy Topçubaşov idi. Heyət çoxpartiyalılıq əsasında formalaşdırılmışdır: Məhəmmədhəsən Hacınski (Müsavat), Əhməd bəy Ağaoğlu (bitərəf demokrat), Əkbər ağa Şeyxülislamov (Hümmət), müşavirlərdən Məhəmməd Məhərrəmov (sosialist), Əli bəy Hüseynzadə (bitərəf) (Nəcəfov, 1997, s. 55). Sədr – Əlimərdan bəy Topçubaşov Azərbaycan tarixinin yetişdirdiyi ən önəmli şəxsiyyətlərdən biridir. Sankt-Peterburq İmperator Universitetində təhsil almışdır. Əmək fəaliyyətinə Tiflisdə başlayan Ə.Topçubaşov (Topçubaşı) Bakıya köçmüş və buradakı siyasi və milli proseslərin mərkəzində dayanmışdır. Əlimərdan bəy Rusiya müsəlman xalqlarının azadlığını onların tam hüquqlu imperiya vətəndaşları olmasında görürdü (Həsənli, 2013, s. 6-7). 1906-cı ildə o, I Dövlət Dumasına deputat seçilmişdi. Rusiya müsəlmanlarının 1917-ci ilin mayında keçirilmiş Moskva qurultayına rəhbərlik edənlərdən biri də o idi. Cümhuriyyət dövründə Əlimərdan bəy Topçubaşov II hökumət kabinəsində portfelsiz nazir olmuş, həmin ilin avqustunda isə Fövqəladə və Səlahiyyətli Nazir kimi İstanbula göndərilmişdir. 1918-ci ilin 28 dekabrında Paris Sülh Konfransına göndərilən nümayəndə heyətinin sədri təyin edilmişdir (Topçubaşov, 2018, s. 3). Sədr müavini – Məhəmmədhəsən Hacınski Peterburq Texnologiya İnstitutunu bitirmişdir. 1908-ci ildə Bakı şəhər idarəsində tikinti şöbəsinə başçılıq etmişdir. 1902–1917-ci illərdə Bakı şəhər Dumasının üzvü olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin I hökumət kabinəsi zamanı ilk xarici işlər naziri təyin olunmuşdur. Hacınski Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin tərkibinə daxil idi (AXC Ensiklopediyası, 2004, s. 442-443). Nümayəndə heyətinin üzvü – Əkbər ağa Şeyxülislamov orta təhsilini İrəvan gimnaziyasında almış, 1912-ci ildə isə Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olmuşdur. 1918-ci ilin fevralında Zaqafqaziya Seyminin üzvü seçilmişdir. Müsəlman fraksiyasında təmsil olunan Hümmət partiyasına daxil idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində sosialist fraksiyasının üzvü olmuşdur (AXC Ensiklopediyası, 2005, s. 372-373). Nümayəndə heyətinin üzvü – Əhməd bəy Ağaoğlu Paris Ali Hüquq Məktəbində hüquq təhsili almışdır. 1905-ci ildə Difai partiyasını qurmuşdur. Türkiyəyə mühacirəti zamanı İttihad və Tərəqqi

partiyasının liderləri ilə yaxınlıq qurmuşdur. Həmçinin Osmanlı Məclisi-Məbusanının üzvü kimi də siyasi fəaliyyət göstərmişdir. İstanbuldakı ingilis işğal qüvvələri İttihad və Tərəqqi liderləri ilə yaxınlığına görə Əhməd bəy Ağaoğlunun Parisə getməsinə imkan verməmişdir. 1919-cu ildə İstanbulda həbs edilərək Malta adasına sürgün edilmişdir (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I, 2005, s. 6). Nümayəndə heyətinin məsləhətçisi – Ceyhun bəy Hacıbəyli Murtuza Muxtarovun vəsaiti ilə Peterburq Universitetinin hüquq fakültəsində təhsil almışdır. Böyük qardaşı Üzeyir Hacıbəyli ilə birlikdə ilk operamız olan "Leyli və Məcnun"u bəstələmişdir. Cümhuriyyət dövründə rus dilində çıxan "Azərbaycan" qəzetinin redaktoru olmuşdur (Azərbaycan Paris Sülh Konfransında (1919-1920), 2008, s. 6). Nümayəndə heyətinin məsləhətçisi – Məhəmməd Məhərrəmov İrəvan gimnaziyasını bitirmişdir. 1917-ci ilin noyabrında İrəvan quberniyasından Rusiya Müəssislər Məclisinə üzv seçilmişdir. 1918-ci ilin 28 mayında Azərbaycan İstiqlal Əqdinaməsini imzalayanlardan biri də o idi. Parlamentdə sosialist fraksiyasını təmsil edirdi (Topçubaşov, 1998, s. 4). Mühacirətdə də Azərbaycan istiqlaliyyətinin tanınması uğrunda siyasi mübarizə aparmışdır. 1924-cü ildə Sorbonna Universitetinə daxil olmuş, universiteti bitirdikdən sonra bank sistemində işləməyə başlamışdır (Azərbaycanın Paris Sülh Konfransındakı elçiləri, 2010, s. 84-85). Nümayəndə heyətinin məsləhətçisi – Miryaqub Mirmehdiyev Peterburq Universitetinin hüquq fakültəsində təhsil almış, təhsilini bitirdikdən sonra Bakıda vəkilliklə məşğul olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində İttihad partiyasının üzvü idi (Azərbaycan Paris Sülh Konfransında (1919-1920), 2008, s. 7).

1919-cu ilin yayında parlamentdəki sosialist fraksiyası nümayəndə heyətinin üzvlərinin rotasiya qaydası ilə əvəzlənməsi barədə qərar qəbul etmişdir. Belə ki, Məhəmməd Məhərrəmovun yerinə Abbas bəy Atamalıbəyov Parisə göndərilmişdir, lakin həmin vaxt nümayəndə heyətinin digər üzvü Məhəmmədhəsən Hacınski Azərbaycana qayıtdığı üçün həm Məhəmməd Məhərrəmov, həm də Abbas bəy Atamalıbəyovun Parisdə qalmaları məqbul sayılmışdır. Nümayəndə heyətinin gənc üzvlərindən olan Abbas bəy burada katib vəzifəsini yerinə yetirirdi.

Bundan başqa, nümayəndə heyətinin tərkibinə əməkdaşlar – Əli bəy Hüseynzadə, Viktor Marçevski; katiblər – Ələkbər bəy Topçubaşov, Səfvət Məlikov; tərcüməçilər – Q.Qafarova, A.Qafarov, H.Məmmədov daxil idilər. Rəşid bəy Topçubaşov sədrin şəxsi katibi vəzifəsində idi. Nümayəndə heyəti hələ İstanbulda olarkən təşkilatlanma aparmış, hər bir üzvün görəcəyi iş konkret müəyyənləşdirilmişdir (Topçubaşov, 1998, s. 4). Sədr Əlimərdan bəy Topçubaşov siyasi məsələlər və memorandumların hazırlanmasına məsul idi. Həmçinin heyətin təşkilati işləri də onun nəzarətində idi. Sədr müavini Məhəmmədhəsən Hacınski nümayəndə heyətinin xəzinədarı idi, bununla bərabər maliyyə bölməsinə rəhbərlik edirdi. Hacınski hökumət adından Avropa ölkələrinin iş adamları ilə ticari-iqtisadi danışıqlar da aparırdı. Əkbər ağa Şeyxülislamov sərhəd məsələləri ilə məşğul olurdu. O, həmçinin Azərbaycana dair xəritə-diaqram hazırlanmasına nəzarət edir, heyətin arxiv və kitabxanasının yaradılmasına məsul idi. Məhəmməd Məhərrəmov xalq təsərrüfatı və əkinçiliklə bağlı məsələlərə cavabdeh idi. Onun vəzifələri sırasına maliyyə hesabatlarının yoxlanılması, iclas protokollarının Azərbaycan türkcəsində yazılması da daxil idi. Ceyhun Hacıbəyli və Əhməd bəy Ağaoğlu əsasən təbliğat məsələləri ilə məşğul olur, Fransa ictimaiyyəti və fransız mətbuatı ilə əlaqələr qururdular. Əli bəy Hüseynzadə isə Azərbaycanla bağlı tarixi-etnoqrafik və ədəbi materialların təbliğat zamanı istifadəsinə məsul idi.

Bütün bu bölgülərə baxmayaraq, Azərbaycan sülh nümayəndə heyəti Parisə tam tərkibdə gedə bilmədi. Buna görə də iş bölgüsündə çətinliklər yaranmış və dəyişikliklərin aparılması zərurətə çevrilmişdi. Bütün çətinliklərə baxmayaraq, sülh nümayəndə heyətinin hər bir üzvü öhdəsinə düşən işi yerinə yetirməyə hazır idi (Azərbaycan Paris Sülh Konfransında (1919-1920), 2008, s. 7-8). Rusiya imperiyasının dağılması nəticəsində Cənubi Qafqazda dövlətlərin yaranması nəinki Avropa dövlətlərinin, həm də ABŞ siyasi dairələrinin marağını çəkirdi. Bunu nəzərə alan Topçubaşov Azərbaycan və Gürcüstan müstəqilliyini Birləşmiş Ştatlarda təbliğ etməyi öhdəsinə götürən ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Valter Çandler vasitəsilə 26 sentyabrda prezident Vudro Vilsona məktublar göndərmişdir. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyəti haqqında memorandum, dövlət xəritəsi, etnoqrafik xəritə ilə birlikdə Azərbaycan əhalisinin milli-etnik tərkibi haqqında memorandumu prezidentə təqdim etmişdir (Nuriyeva, 2019, s. 14). Paris Sülh Konfransına

gedən ağır yol. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti ölkəyə mümkün xarici müdaxiləni sovuşdurmaq üçün beynəlxalq aləmdə tanınmanı vacib sayırdı. Bu məqsədlə Cümhuriyyət Parlamenti 1918-ci ilin 28 dekabrında parlament sədri Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyəti göndərmək barədə qərar qəbul etmişdir (AXC Ensiklopediyası, 2004, s. 44).

Paris Sülh Konfransına gedən nümayəndə heyətini yola salmaq üçün Baş nazir F.Xoyski, parlament və hökumət üzvləri gəlmişdilər. Azərbaycan nümayəndə heyətinin olduğu qatar Tiflisdən Batuma, oradan isə Potiyə istiqamət götürmüşdür. Daha sonra isə onlar İstanbula gələrək Fransa vizası almalı və Parisə getməli idilər. İstanbula çatana qədər nümayəndə heyəti sədrinin vəzifəsini Məhəmmədhəsən Hacınski icra edirdi, İstanbulda isə bu səlahiyyət Əlimərdan bəy Topçubaşova keçməli idi. Nümayəndə heyəti İstanbulda ilk iclasını 1919-cu ilin 22 yanvarında Əlimərdan bəy Topçubaşovun mənzilində keçirmişdir. Bir aydan çox İstanbulda ləngimək məcburiyyətində qalan Azərbaycan nümayəndələri Ukrayna və Kuban nümayəndələri ilə birgə müttəfiq dövlətlərin təmsilçilərinə memorandum göndərmişdir. Qarşılaşdıqları çətinliklər Azərbaycan təmsilçilərini sarsıtmamışdır. Bir müddət sonra M.Hacınski, C.Hacıbəyli və M.Məhərrəmovla görüşən İngiltərə nümayəndəsi Holler nümayəndə heyətinin Parisə getməsinə icazə verilmədiyi təqdirdə onları Londona göndərməyi vəd etmişdir. Azərbaycan nümayəndə heyətinin Parisə getməsi üçün əsas maneəni Fransa hökuməti yaradırdı. 1919-cu ilin 14 fevralında fransız təmsilçisi Ə.Topçubaşova nümayəndə heyətindən yalnız iki üzvün Parisə gedə biləcəyini bildirmişdi (Azərbaycanın Paris Sülh Konfransındakı elçiləri, 2010, s. 28-37).

Azərbaycan nümayəndə heyəti İstanbula gəldiyi 1919-cu ilin 20 yanvarından etibarən fransız nümayəndələrindən viza alıb Parisə yola düşmək məsələsi ilə məşğul olmuşdur. Azərbaycan nümayəndə heyətindən əlavə Ukrayna və Şimali Qafqaz Dağlılar Respublikasının nümayəndələri də viza almaq ümidi ilə İstanbulda gözləyirdilər. Bu nümayəndə heyətlərinin yığıncağında Sülh Konfransına kollektiv müraciət edilməsi qərara alınmışdır. Topçubaşov tərəfindən yazılmış memorandumda yeni yaranmış dövlətlərin xalqlarının müstəqil yaşamaq arzusu əks olunmuşdur. Topçubaşov fevralın 25-də (martın 5-də) Bakıya göndərdiyi məlumatda müttəfiqlərin Azərbaycana olan yad münasibətini açıq şəkildə qeyd etmişdir (Nəsibzadə, s. 150-152).

Versal konfransında diplomatik fəaliyyət. 1919-cu ilin əvvəllərində beynəlxalq vəziyyət Azərbaycan hökumətinə olan etimadı artırmışdır. Azərbaycanın xarici siyasətində dəyişikliklər baş vermişdir. Belə ki, M.Y.Cəfərov 1919-cu ilin aprelində Xarici İşlər naziri vəzifəsinə başladıqdan sonra xaricdəki diplomatik nümayəndəliklərdə bir sıra dəyişikliklər etmişdir. Azərbaycan nümayəndələri Parisə gəldikləri ilk günlərdən etibarən oradakı siyasi iqlimi öyrənməyə xüsusi əhəmiyyət vermişlər. May ayı ərzində Azərbaycan nümayəndələri Polşa, İran və Ermənistan nümayəndə heyətləri ilə görüşlər keçirmişlər. Danışıqlarda Qafqaz respublikalarının siyasi-iqtisadi ittifaqının yaradılması qərara alınmışdır. 23 mayda Azərbaycan nümayəndələri İngiltərə nümayəndə heyətinin üzvü Luis Mallet ilə görüşmüşlər. Danışıqlar zamanı Əlimərdan bəy Topçubaşova Bakıda ingilis general-qubernatorluğunun ləğvi üçün bütün vasitələrdən istifadə etmək tapşırılmışdır (Həsənli, 2009, s. 210-218).

28 mayda ABŞ prezidenti V.Vilson Ə.Topçubaşov başda olmaqla Azərbaycan nümayəndə heyətini qəbul etmişdir. Bu fürsətdən istifadə edən Əlimərdan bəy Topçubaşov ABŞ prezidentinə Azərbaycan Xalq Cümhuriyyəti haqqında geniş məlumat vermiş və sülh konfransından tələblərini ona təqdim etmişdir. 6 bəndlik bu sənəddə Azərbaycanın müstəqilliyinin tanınması, Vilson prinsiplərinin Azərbaycana şamil edilməsi, nümayəndə heyətinin konfransa buraxılması, Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul edilməsi, ABŞ hərbi departamentinin Azərbaycana hərbi yardım göstərməsi və ABŞ ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulması xahiş olunmuşdur. Azərbaycan nümayəndələrinin prezident V.Vilson tərəfindən qəbul edilməsi əhəmiyyətli hadisə olmuşdur.

Azərbaycan nümayəndə heyətinin həll etməli olduğu mühüm məsələlərdən biri də "Böyük Ermənistan" iddialarına qarşı mübarizə idi. Onlar 6 Anadolu vilayətinə, Kilkiyəyə və hətta Cənubi Azərbaycanın bir hissəsinə iddia edirdilər. Azərbaycan nümayəndə heyəti bu tələblərə qarşı xüsusi bəyanatla çıxış etmişdir. 1919-cu ilin iyununda Azərbaycan nümayəndələri İrəvan quberniyasında

yaşayan azərbaycanlıların ağır şəraiti haqqında məlumatı konfrans iştirakçılarına çatdırmışlar. Həmçinin 1919-cu ilin yayında Azərbaycan Xalq Cümhuriyyəti Qarabağda suveren hüquqlarını bərpa etdikdən sonra Əlimərdan bəy Topçubaşovun Paris Sülh Konfransına təqdim etdiyi məlumatlarda Qarabağın erməni əhalisinin Azərbaycan hökumətinə tabe olmaq haqqında qətnamə qəbul etdiyi göstərilmişdir.

Paris Sülh Konfransında müzakirə olunan məsələlərdən biri də mandatlıq məsələsi idi. 1919-cu ilin iyul-avqust aylarında Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının nümayəndələrinin Qafqazda Britaniya və İtaliya himayədarlığı ilə bağlı keçirdikləri müzakirələrdə Azərbaycan nümayəndələri Britaniya təhlükəsizlik sisteminə daxil olmaq istəsələr də, avqustun 25-də ingilis qoşunlarının Azərbaycandan çıxmasından sonra orientasiya məsələsi yenidən gündəmə gəlmişdir. ABŞ da Qafqaz və Azərbaycanın mandatına maraq göstərən dövlətlərdən biri idi. Avqustun sonunda amerikalı polkovnik Haskel Bakıya gələrək Cümhuriyyətin Baş naziri Nəsib bəy Yusifbəyli ilə danışıqlar zamanı Naxçıvan və Şərur-Dərələyəz bölgələrində Amerika general-qubernatorluğu yaratmaq ideyasını irəli sürmüş, lakin bu ideya Azərbaycan hökuməti tərəfindən qəbul edilməmişdir (AXC Ensiklopediyası, II, 2005, s. 288-289).

## Nəticə

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti çox gərgin siyasi şəraitdə keçmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mütərəqqi hadisə olaraq müsəlman Şərq ölkələrində respublika ideyalarının formalaşmasına təsir göstərmişdir. Azərbaycanın xarici siyasətinin əsas məqsədi dövlət müstəqilliyinin tanınması idi. Cümhuriyyətin Paris Sülh Konfransında iştirakı məhz bu vəzifənin təmin edilməsi və Azərbaycan diplomatiyasının uğuru idi. 1920-ci il yanvarın 11-də Antanta Ali Şurasının Azərbaycanın müstəqilliyini de-fakto tanıması, sözün əsl mənasında, dövrünə görə müstəsna bir hadisə olmuşdur.

Bu gün Azərbaycan diplomatiyası zəngin ənənələrə malik olaraq mürəkkəb beynəlxalq vəziyyətdə çox vaxt yeganə düzgün addımlar atır. Bu isə dövlətimizin milli və regional təhlükəsizliyini təmin edir, beynəlxalq nüfuzunu daha da artırır. Məhz bunun nəticəsində dövlət suverenliyi və ərazi bütövlüyümüz bərpa olunmuşdur. Azərbaycan Respublikası bu gün təkcə regionda deyil, bütün dünyada və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrdə söz sahibi olmuşdur.

## Ədəbiyyat

1. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası*. (2004). I cild. Lider nəşriyyatı.
2. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası*. (2005). II cild. Lider nəşriyyatı.
3. *Azərbaycan Xalq Cümhuriyyəti tarixi*. (2010).
4. *Azərbaycan Paris Sülh Konfransında (1919-1920).* (2008). Ozan.
5. *Azərbaycanın Paris Sülh Konfransındakı elçiləri*. (2010). Elm.
6. Həsənli, C. (2009). *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti*. Garisma MMC.
7. Həsənli, C. (2013). *Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov*. Azərbaycan Diplomatiya Akademiyası.
8. Qasımlı, M. (2010). *Azərbaycan Xalq Cümhuriyyəti və beynəlxalq münasibətlər*.
9. Nəcəfov, B. (1997). *Azərbaycan Demokratik Respublikası*. Bilik.
10. Nəsibzadə, N. (1996). *Azərbaycan xarici siyasəti (1918-1920).* Ay-Ulduz nəşriyyatı.
11. Nuriyeva, İ. (2019). Azərbaycan diplomatiyasının Paris Sülh Konfransında fəaliyyəti. *Geostrategiya*, (2), 14–17.
12. Topçubaşov, Ə. (1998). *Paris məktubları*. Azərnəşr.

Daxil oldu: 17.04.2025
Qəbul edildi: 21.07.2025